**Emil AĞAYEV**
**ADPU-nun nəzdində**
**Azərbaycan Dövlət Pedaqoji kolleci**
**"İncəsənət və fiziki tərbiyə" fbk müəllimi**
**emilaghayev93@mail.ru**

# AZƏRBAYCAN–ÇEXİYA MULTİKULTURAL-MƏDƏNİ ƏLAQƏLƏRİNİN TƏSVİRİNİN SƏNƏTİMİZDƏ ƏKSİ

Dünya xalqlarının inkişafı, qarşılıqlı münasibətləri bəşəriyyət üçün vacib amillərdən biridir. Bu ideyaların möhkəmlənməsində əsas yeri multikultural-mədəni əlaqələr tutur. Azərbaycan müstəqillik qazandıqdan sonra dünya ölkələri ilə bütün istiqamətlərdə uğurlar qazanır. Xüsusilə bütün sahələrdə yüksək səviyyədə əlaqələrimiz olan ölkələrdən biri də Çexiyadır. Hər iki ölkənin mədəniyyət əlaqələri əsaslı şəkildə vurğulanmalıdır.

Çex sənətşünası M.Rşitsa Qobustanda geniş tədqiqatlar aparmış və bu haqda "Dünyanın beş hissəsinin qaya təsvirləri" adlı yeni kitabında geniş elmi fikirləri ilə öz münasibətini bildirmişdir. Rəssamlarımız da paytaxt Praqanın doğmalığını hiss edərək bu şəhərə üstünlüyü ilə seçilən lirik əsərlər həsr etmişlər.

Təsviri sənətimizdə öz mənzərələri ilə geniş şöhrət qazanan Böyükağa Mirzəzadənin yaradıcılığına nəzər yetirsək, Praqaya həsr edilmiş əsərləri görə bilərik. 1962-ci ildə "Praqanın görünüşü" əsərində rəssam bütün diqqəti paytaxt şəhərin vedutasına çəkir. İmpressionizm ənənələrinə, rəng, üslub xüsusiyyətlərinə ciddi şəkildə riayət edir. İşıq-hava perspektivindən istifadə edərək əsəri iki hissədə aydın və dumanlı rəng qamması ilə əhatə etmişdir. Digər bir əsərində isə şəhərin bir küçəsinə diqqəti çəkərək "Praqada gecə" (1962) (ill1) adlandırmışdır. Kompozisiyada daha çox qırmızı rəngin semantik parlaqlığı əldə edilmişdir. Puantilistlərin təsviri-nəzəri prinsipləri əsərdə aydın vurğulanmışdır. "Müqəddəs Vita

məbədi" (1959), "Praqa" (1959), "Vltavanın sahilində" (1959) əsərlərində tarixi Praqa simvollarına multikultaral mədəni dəyərlərin birləşdiyi mərkəz kimi təqdim edilmişdir.

"Praqada səhər" (1961) əsərində isə mavi rəngin tam əhatəli formada şəhəri əhatə etməsi Kamil Xanlarovun bu mövzuya maraqlı münasibətini göstərir. Əsərdə daha çox panoramlı perspektivlə şəhərin memarlığını, Səttarsayağı rəng palitrasına əhatələnmiş estetik baxışların bitkinliyini görə bilərik. Yaradıcılığı daha çox sərt üslubla bağlı olan Tahir Salahovun "Praqa" silsilələrində də fırçanın cəldhərəkətliliyi izlənilir.

Qrafika tariximizdən danışırıqsa mütləq Xalq rəssamı Arif Hüseynovun adını vurğulamalıyıq. "Folklar bayramı. Moravia" (1985) (ill.2), "Praqada şənbə günü" (1982) əsərləri ağ-qara rənglərlə çex xalqının məişəti, geyim estetikası, milli dəyərlərinə multikultural baxışları ilə seçilir.

Müasir dövrümüzdə də Bakı–Praqa multikultural-mədəni əlaqələri genişlənərək dünya ölkələrinə nümunə olacaqdır.

**Emil Agayev**

**DESCRIPTIONS OF AZERBAIJAN–CZEHC RESPUBLICAN MULTICULTURAL-CULTURAL RELATIONS IN OUR ART**

***Summary***

Azerbaijani–Czech relations have developed at a high level since independence. The theme of Prague occupies an important place in our fine arts. Works by B.Mirzazade, A.Huseynov, K.Khanlarov, T.Salahov were analyzed in the context of art criticism.